Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Beynəlxalq kino günü

**28 dekabr Beynəlxalq kino günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**28 dekabr Beynəlxalq kino günü** münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. Ruhiyyə Məmmədli; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. – 62s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Beynəlxalq kino günü

Kinonu tərəqqiyə, rahat, əmin-aman həyata can atan insanların arzu çələngi də adlandırmaq olar. Ən azından ona görə ki, əsəbləri tarıma çəkən mövzulardan əlavə nağıl, macəra, melodrama, romantika janrlı filmlərdə həyat gözəlliklərini, sevgi anlayışını insanlığı dəyərləndirən keyfiyyətləri görmək mümkündür.

Dekabrın 28-də dünyada Beynəlxalq Kino Günü qeyd olunur. 1895-ci il dekabrın 28-də Lui və Oqyust Lümyer qardaşları Parisin Kapusin bulvarındakı balaca kafedə ilk dəfə özlərinin çəkdikləri qısametrajlı filmlərin pullu nümayişini təşkil ediblər. Filmlərin arasında 46 saniyəlik "Fəhlələrin Lümyer fabrikindən çıxması" filmi də var idi. Lümyer qardaşları hesab edirdilər ki, kino həyat səhnələrinin nümayişindən başqa bir şey deyil və olmayacaq. Lakin bəşəriyyət xroniki sinematoqrafiyanı sevdi. Kino körpə uşaq kimi, əvvəlcə danışa bilmirdi. Tamaşaçıları aktyorların hərəkətləri, üz-gözünü büzməsi ilə əyləndirirdi.

Çoxları kinonun yaranması ilə teatrın məhv olacağını deyirdi. Yaxşı ki, həyat bu ehtimalı təkzib etdi. Siyasətçilər kinonun böyük gücə malik olmasını hamıdan əvvəl anlamışlar. Onlar Lümyer qardaşlarının ixtirasının köməyi ilə kütlələrə təsir etməyin mümkün olduğunu görürdülər.

Azərbaycanda milli kino günü hər il avqustun 2-də qeyd edilir. Ümummilli lider Heydər Əliyevin 2000-ci il 18 dekabr tarixli Sərəncamı ilə avqustun 2-si kino işçilərinin peşə bayramı - Azərbaycan Kinosu Günü kimi qeyd olunur.

Fransada keçirilmiş ilk kinoseansdan iki il sonra - 1898-ci il avqustun 2-də Bakı elmi-foto dərnəyinin katibi, naşir və fotoqraf Aleksandr Mişon özünün lentə aldığı "Bibiheybətdə neft fontanı yanğını", "Əlahəzrət Buxara əmirinin yolasalma mərasimi", "Qafqaz rəqsi" xronikal sənədli və "İlişdin" adlı bədii süjetlərini nümayiş etdirmişdi. Həmin gün milli kinonun yaranma günü sayılır.

Ötən əsrin əvvəllərində "Pate", "Pirone", "Filma" kimi xarici kino şirkətləri Bakıda filiallarını açaraq film istehsalı ilə məşğul olublar. 1916-cı ildə yazıçı İbrahim bəy Musabəyovun eyniadlı povesti əsasında "Neft və milyonlar səltənətində", 1917-ci ildə isə Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında "Arşın mal alan" qısametrajlı bədii filmləri çəkilib.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə hökumət bir çox mədəni-siyasi islahatlar keçirib. Xarici aləmlə diplomatik, mədəni-iqtisadi əlaqələr dünya kinosunun ilk nümunələrinin Bakıya gətirilməsinə və ictimai baxışlara təkan verib. Bunun nəticəsində Bakıda kinematoqrafiya həvəskarlarının sayı artmağa başlayıb. 1918-ci ildə onlar "Kinematoqrafiya və teatr qulluqçuları şurası"nda birləşiblər. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1923-cü ildə Azərbaycan Foto-Kino İdarəsi (AFKİ) yaradılıb və həmin il aprelin 28-də Birinci Dövlət Kinofabriki açılıb. Burada çəkilən ilk film xalq əfsanəsinin motivləri əsasında yaradılmış "Qız qalası" bədii filmi olub.1923-1926-cı illərdə kinostudiya Birinci Dövlət Kinofabriki, sonradan AFKİ Kinofabrik ilə birləşdirilərək "Azdövlətkino", "Azərkino", "Azərfilm", "Azdövlətkinosənaye", "Bakı kinostudiyası",

"Azərbaycanfilm" adlandırılıb. 1960-cı ildən Cəfər Cabbarlının adını daşıyır.

"Azərbaycanfilm"də indiyədək iki mindən çox müxtəlif növ və janrda film istehsal olunub. Onların bir hissəsi, o cümlədən "Arşın mal alan", "Şərikli çörək", "Ad günü", "Sevinc buxtası", "İstintaq", "Yaramaz" və başqaları Dövlət mükafatlarına, bir çox filmlər, o cümlədən "Ögey ana", "Uzaq sahillərdə", "Arşın mal alan", "Bizim Cəbiş müəllim", "Axırıncı aşırım", "Nəsimi", "Özgə vaxt", "Sarı gəlin", "Ovsunçu", "Buta", "Çölçü", "Nabat", "Axınla aşağı" və digərləri beynəlxalq və digər kinofestivalların mükafatlarına layiq görülüb.

Qeyd edək ki, 2018-ci ildə Azərbaycan kinosunun 120 illiyinin qeyd olunması haqqında Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən ölkəmizin hər yerində silsilə tədbirlər keçirilib. Bu il 122-ci ildönümünü qeyd etdiyimiz Azərbaycan kino sənəti ötən müddətdə əlamətdar hadisələrlə zəngin özünəməxsus inkişaf yolu keçərək, xalqımızın mədəni-mənəvi həyatında mühüm rol oynayıb.

Azərbaycan kinosu böyük tarixə malikdir. Bu illər ərzində ölkəmizin, xalqımızın həyatının müxtəlif sahələrinə aid filmlər çəkilib. Təxminən son on ildə dövlət büdcəsindən ayrılmış vəsait hesabına tammetrajlı və qısametrajlı bədii, sənədli, habelə cizgi filmləri çəkilib. Bu gün gənclərimiz dünyanın bir sıra ölkələrində bu sahədə təhsil alırlar. Eyni zamanda, ölkəmiz dünyanın müxtəlif ölkələrində keçirilən film festivallarında iştirak edir.

Film, kino və ya kinofilm – hərəkətli təsvirlərdən istifadə etməklə hekayələri, fikirləri, hisləri, gözəlliyi və müxtəlif düşüncələri bizə çatdıran vizual sənət sahəsidir. Buradakı

təsvirlər səslə, çox nadir hallarda isə, digər vasitələrlə müşayiət olunur. Kinematoqrafiya sahəsinin qısaldılmış adı olan "sinema" sözü, tez-tez film çəkilişi və ya film sənayesi sahələrinə istinadən işlədilir.

Dünya kino tarixində ilk film 1896-cı ildə Lümyer qardaşları tərəfindən çəkilmişdir. Azərbaycanda isə ilk filmlər 1898-ci ildə fotoqraf və nasir Aleksandr Mişon tərəfindən çəkilmişdir. Hazırda filmlər kinoteatr və televiziyalarda ağ-qara, rəngli, səssiz, səsli və musiqili şəkildə nümayiş olunur.

## Filmləri hazırlanması və yayımlanması:

Filmdəki hərəkətli təsvirlər bəzi vizual effektlər və ya bu kimi tekniki proseslərin birləşməsi nəticəsində CGI, kompüter animasiyası vasitəsilə ənənəvi animasiya üsulundan istifadə edərək yaradılır. Hazırlanmış miniatür təsvirlər və ya kinokamera vasitəsilə çəkilmiş şəkillər ardıcıl olaraq birləşdirilir və nəticədə hərəkətli illüstrasiyalar yaratmaq mümkün olur.

Rəqəmsal istehsalın tətbiqindən əvvəl, film saniyədə 24 kadr və ya təsvir sürətlə çəkilmiş canlı hərəkətin bir sıra statik və ya hərəkətsiz şəkillərindən ibarət fiziki bir hərəkət zolağı idi. Buradakı şəkillərin ardıcıl hərəkəti nəticəsində şəkil illüstrasiyası yaranır. İzləyici hərəkətli təsvirləri izləyərkən onun beyni bunu "hərəkət edən təsvirlər" kimi qəbul edir, lakin bu şəkillərin ardıcıl düzülüşüdür.

Ənənəvi olaraq, filmlər fotokimyəvi proses vasitəsilə sellüloid film fonduna yazılır və sonra kinoproyektor vasitəsilə böyük ekranda göstərilir. Müasir filmlər istehsal,

distribüsiya və sərgiləmə (yayımlamaq) prosesi ilə tam rəqəmsal ola bilirlər, amma fotokimyəvi formalarda isə filmlərin yaranması analoji optik soundtrak ilə bağlıdır.

Filmi təşkil edən fərdi təsvirlər kadrlar adlanır. Ənənəvi sellüloid filmlərin proyeksiyasında fırlanan qapaq qaranlıq intervallara səbəb olur, çünki hər bir kadr öz növbəsində proyeksiya ediləcək vəziyyətə gətirilir, lakin tamaşaçı görmənin davamlılığı kimi tanınan təsirə görə fasilələri hiss etmir. Göz mənbəyi yox olduqdan sonra bir saniyə ərzində vizual görüntünü saxlayır. Hərəkətin qavranılması qismən "fay fenomeni" adlanan psixoloji təsirlə bağlıdır.

"Film" adı ondan irəli gəlir ki, fotoqrafiya filmi (film fondu da adlanır) tarixən kinofilmlərin yazılması və nümayişi üçün vasitə olub. İngilis dilində fərdi filmlər üçün bir sıra terminlər (picture, motion pictures, photoplay və ya flick) var. ABŞ-da filmlər çox zaman movie kimi adlansa da, Avropada film adı daha çox istifadə olunur. Film sözünün ingiliscədə big screen, the silver screen, the movies və cinema kimi sinonimlərinin işlədilməsi səciyyəvidir. Əvvəllər səhifə sözü ekran sözünün əvəzinə işlədilirdi. "Film" ümumiyyətlə uzun standartda çəkilən kommersiya video istehsalına istinad etmək üçün yaxşı termin deyil, çünki o konkret məna ifadə etmir və buna görə də düzgün şərh üçün kontekst tələb edir.

**Tarixi**

Film sənətinin yaranması XX əsrdə göstərilən "sehrli lampa" (lat. Laterna magica) ilə başlayır. Bu qurğu ilə şüşə üzərində çəkilmiş şəkil ardıcıllığını (diaprojektora oxşar olaraq) divara salmaqla göstərmək olurdu. Qurğu əl ilə işləyirdi.

1832-ci ildə alman Simon Ştamfer və belçikalı Yozef Platyo bir-birindən xəbərsiz eyni vaxtda "canlı çarx"ı düzəldirlər. Bu çarx sehrli lampanın prinsipi ilə işləyirdi. O fırlandıqda onun üzərindəki şəkillərin ardıcıl hərəkəti nəticəsində səlis hərəkətli kadrlar almaq olurdu.

Mühəndis Frans fon Uxatius 1845-ci ildə bu iki qurğunun kombinasiyasına əsaslanan yeni qurğu ixtira edir. Ancaq bu da uzun səhnələrin göstərilməsi üçün yararlı deyildi.

İlk filmlərin əsasında cizgi dururdu. Filmin sonrakı inkişafı fotoqrafiya ilə bağlı idi. Yozef Niepse işığın müəyyən səthdə saxlanması üsulunu inkişaf etdirdikdən sonra Luiz Daqürr bu sahədə irəliyə doğru daha bir addım ataraq 1839-cu ildə özünün "Daqürretopiya" qurğusunu düzəldir. Bununla da ilk dəfə olaraq təbiətin əksini almaq mümkün olmuşdur. Daqürrotopiya əşyanın metal üzərindən foto pozitividir.

Filmlərin çəkilişinə qədər hələ çox texniki maneələr aradan qaldırılmalı idi. Ayrıca şəkil üçün tətbiq olunan işıqlandırma vaxtı çox uzun idi. Bu sahədə dönüş 1872-ci ildə fotoqraf Edvard Meybridj tərəfindən atın hərəkətini çəkməsi ilə baş verir. Sonralar Ernst Kolrauş 1890-cı ildə Rayn ətrafında özü düzəltdiyi xronofotoqrafla ardıcıl şəkillər çəkir. Alman ixtiraçısı Ottomar Anşuts və fransız Etinne Marey düzəltdikləri "tez oxuyan elektrik qurğu" ilə bu sahədə irəliyə doğru növbəti addımı atmış olurlar. 1893-cü ildə Mareyin assistenti Demeni fotoxronoqrafiya qurğusuna patent alır.
Fransız Luiz Le Prins İngiltərədə ilk birobyektivli film kamerasını düzəldir. 1888-ci ildə o bu kamera ilə şəkillər çəkir, bunlara artıq film demək mümkün idi.

Luiz Le Prinsin ixtirası ilə tanış olmayan Villiyam Dikson 1891-ci ildə Tomas Edisonun müəssisəsində kinetoskop və kinemotoqrafı ixtira edir. Bu qurğuda sellüloid film lentləri obyektivin qarşısından keçirilə bilirdi. Ancaq bu kinetoskopdan yalnız bir nəfərin istifadəsi mümkün idi.

Filmlər yarandığı ilk zamanlardan səssiz nümayiş etdirilmişlər. 1 noyabr 1895-ci ildə Skladovski qardaşları Berlinin klublarının birində düzəldikləri bioskop ilə 15 dəqiqəlik səssiz film nümayiş etdirirlər. Eyni vaxtda fransalı Lümyer qardaşları öz kinomoqraf (bu şəkil çəkən, köçürən və çalan qurğulardan ibarət idi) qurğusu ilə səssiz film göstərirlər.

Skladovski qardaşlarından fərqli olaraq Lümyer qardaşları öz filmlərinin 22 mart 1895-ci ildə olan nümayişinə cəmiyyətin yuxarı təbəqəsinin nümayəndələrini də dəvət etmişdirlər. 28-i dekabr 1895-ci ildə Parisdə filmin prezentasiyası baş tutur. Lümyer qardaşlarının düzəltdikləri qurğu Skladovski qardaşlarına mənsub olanı sıxışdırır. Çünki, Lümyer qardaşları bunun üçün böyük kapitala malik idilər.

Səssiz filmlər çox qısa idilər. Onlar cəmi bir neçə saniyə göstərilərək, adi həyatı və müəyyən zarafatlarla dolu hadisələri təsvir edirdilər. İlk zamanlarda filmə olan maraq bunun üçün düzəldilmiş texniki inkişafla bağlı idi. Filmlərin mövzusuna maraq isə bir qədər gec yaranmışdır.

Lümyer qardaşlarının çəkdiyi filmlər yalnız fotoqrafiyaya tamamlama kimi baxıla bilərdi. Bu canlı şəkillər yalnız dokumentasiya xarakteri daşıyırdılar.

İngiltərəli Qeorq Smit 1902-ci ildə "Doktor" adlı film çəkərək ilk dəfə olaraq filmdə informasiya vermək yolunda addım atır. Onun filmində söhbət pişikdən gedirdi. Perspektivlərin, şəkillərin ölçülərinin dəyişdirilməsi və

onların ritmik qaydada uzlaşdırılması ilə o "film dilini" yaratmışdır. İlk filmlər sırasında 1903-cü ildə Edvin Porter tərəfindən çəkilmiş, 12 dəqiqəlik "Qatarda böyük qarət" filmi böyük rol oynamışdır. Bu ilk vestern tipli filmdə qatara hücum, qaçış kimi tamaşalar təsvir olunmuşdur.

1910-cu ildən Hollivudda bir çox film ustaları öz müəssisələrini açırlar. Bu yerin seçilməsində əsas rolu oranın çəkişmələrdən uzaq və günəşli olması idi. Sonuncu amil film materialının işığa güclü həssas olması və günəşin yeganə işıqlandırma vasitəsi olması ucbatından çox vacib idi. Həmin vaxtlarda film sənəti həm ABŞ-da, həm də ondan uzaqlarda inkişaf edirdi. İtaliya filmi Kabiria (1914) istehsal xərcləri üçün yeni miqyaslar qoyur. Qriffitin çəkdiyi "Millətin yaranması" (1915) və "Tolerantsızlıq" (1916) kimi filmlər məşhurlaşırlar.

Həmin dövrdə komediyaçı Çarli Çaplinin filmləri çox sevilirdi. 1921-ci ildə çəkdiyi "Uşaq" filmi ilə o çox böyük uğur qazanır.

Rus film ustası Sergey Eyzenşteyn montaj texnikasının inkişafına təsir göstərir. Onun məşhur filmi "Potyomkin zirehli gəmisi" (1925) bir gəmidə üsyandan və matrosların Odessada rus ordusu ilə toqquşmasından söhbət açır. Bu filmdə işlədilən bir çox səhnələr öz yeniliyinə görə film tarixində tez-tez hallanır.

**Kinematoqrafiya nədir:**

Kinematoqrafiya hərəkətli şəkilləri nizamlı və tutarlı şəkildə çəkmək, qeyd etmək və proyeksiya etmək sənətidir. Söz Yunan dilindən gəlir kínēma, 'hərəkət' və qrafeyn, "qeyd et və ya yaz" mənasını verir.

Sinematoqrafiya, Auguste və Louis Lumière qardaşları tərəfindən patentləşdirilmiş, 35 mm filmə bir sıra ardıcıllıq yazmağı və hərəkət illüziyası yaratmaq üçün sürətlə bir ekrana yansıtmağı bacaran bir cihaz olan kinematoqrafın ixtirası sayəsində inkişaf etdirildi.

The kinematoqraf 28 dekabr 1895-ci ildə Lumière qardaşları tərəfindən bir film qeydinin ilk kütləvi nümayişində təqdim edildi. Bu münasibətlə Lumière qardaşları işçilərin bir fabrikdən getməsini sənədləşdirən bir səhnə nümayiş etdirdilər. Əvvəlcə kinematoqrafiyaya sənədli bir istifadə verilsə də, onun qondarma söylədikləri çoxaltmaq imkanları çox keçmədən araşdırıldı və zaman keçdikcə bu gün bildiyimiz kimi kinematoqrafiya meydana çıxdı.

Geniş mənada kinematoqrafiya qətiliklə kinematoqraf vasitəsi ilə hərəkətli obrazların qeyd edilməsinə aiddir. Bununla birlikdə, bu termin ümumiləşdirilmiş şəkildə istifadə etmək üçün istifadə olunur. (yeddinci sənət)

Həqiqətən, 1920-ci illərdə, film tənqidçisi Ricciotto Canudo, "yeddinci sənət" terminini o zamanlar cazibədar bir inkişaf yolu keçən qondarma kinematoqrafiyaya tətbiq etdi. Beləliklə, Canudo bunu "hərəkətdə olan bir rəsm" hesab etdi.

**Danışan filmlər:**

Səsli filmlərin tarixi 1927-ci ildə ABŞ-da "Caz müğənnisi" filmi ilə başlayır. Bu vaxtdan başlayaraq

Amerika film istehsalçıları tezliklə səsli filmlərə keçirlər və bütün dünya üzrə bunun geniş yayılmasında aparıcı rol oynayırlar. İlk səsli filmlərin çəkilməsi müəyyən texniki problemlərlə bağlı idi. Dəqiq sinxronizasiya etmək çətinlik yaradırdı. Ona görə də, səsli filmlərin çəkilişi əsasən 1930-cu ildən başlayaraq vüsət alır. Bu sahədə Western Electric und Küchenmeister-Tobis-Klangfilm-Gruppe şirkətləri tanınmış idilər.

1930-cu ildən başlayaraq Paris, London və Hollivud film sahəsində əsas mərkəzlərə çevrilirlər. Həmin ərəfədə Almaniyada nasional sosialistlərin hakimiyyətə gəlməsi ilə bu sahədə çalışan iki minə yaxın yəhudi əsilli mütəxəssis mühacirət edir və bununla Almaniyada bu sahə başqalarına nisbətən geri qalır.

1939-cu illər klassik Hollivud kinosu ərəfəsi sayılır. Burada çəkilən filmlərin mövzusu bəxt və ümid haqqında fantaziyalı təsəvvürlər idi. Filmlərin sonu isə həmişə yaxşılıqla qurtarırdı. Amerikada hökm sürən iqtisadi böhran zamanı belə filmlər rəğbətlə qarşılanırdı. 1940-cı ildən başlayaraq isə artıq filmlərdə realiq yer almağa başlayır. Amerika studiyaları film sənayesində özlərini möhkəmlədirlər.

ABŞ-ın İkinci dünya müharibəsində iştirakından sonra Amerika filmi propaqanda alətinə çevrilir. Bir çox film yaradıcıları, o cümlədən Çarli Çaplin və Volt Disneydə anti faşist propaqandası ilə məşğul olurlar.

İkinci dünya müharbəsindən sonra Amerikada film sənayesi öz inkişafı ilə irəliləyirdisə, Avropada bunu yenidən başlamaq lazım gəlirdi. Avropa filmi İtaliyadan başlayır. Ancaq bu filmlər kasıb malliyə imkanına görə qısa və çox zaman xüsusu effektsiz istehsal edilirdi və kənar adamların

əsas rollarda iştirakı ilə çəkilirdi. Buna görə də, bu filmlərdə adi insanların həyatı təsvir edilirdi və bununla güclü sosial potensiala malik idi. Rejissor Roberto Rossellininin çəkdiyi bu növ filmlərə neorealizm deyilirdi.

Film sənətində növbətii inkişaf mərhələsi kinoteatra rəqabət yaradan televizorun yaranması ilə əlaqədardır. Ona görə də, tamaşaçıları cəlb etmək üçün kino daha da inkişaf etdirilməli idi. Kinonu maraqlı etmək üçün bir çox texniki yeniliklər baş verir. Buna geniş format, stereo və rəngli filmləri misal göstərmək olar. Sonralar isə 3D filmləri yaradılır.

**1960–70-cı illərdə filmin inkişafı**

Bu ərəfədə Hollivudun "qızıl dövrü" başa çatır. Məşhur Hollivud aktyorları artıq qocalmış və ya çoxları vəfat etmişdilər. Film studiyaları Jak Verner kimi yaşlı şəxslər tərəfindən idarə edilirdilər. Çəkilən filmlər çox vaxt reallıqdan uzaq mövzuları əhatə edirdi. Bununla azalan tamaşaçı kütləsini geri qazanmaq üçün az keyfiyyətli monumental və musiqili filmlərin çəkilməsinə studiyalar küllü miqdarda maliyyə vəsaiti qoyurlar.

Bu vaxt Avropada film sənətində yeni kreativ cərəyanlar yaranmağa başlayır. Rejissorlar ketdikcə daha böyük əhəmiyyət kəsb edir və ssenarist kimi də ad qazanırlar. Belə bir təmayül isə Hollivud film sənayesində o qədər də hiss olunmurdu.

1950-ci illərin sonunda fransız Nuvel Vako (Nouvelle Vague) müəllif filmi olan "Sonuncu nəfəsdə" filmini çəkir. O dövrdə İngiltərədə movcud olan "azad kino" buna paralel kimi göstərilə bilər. İngilis filmləri adətən fəhlə təbəqəsindən

bəhs edir və sosial problemləri diqqət mərkəzinə gətirirdi. Yazıçı Alan Sillitoenin əsərləri maraqla filmə çəkilirdi.

Latın Amerikasında da film sənayesi inkişaf etməkdə idi. Buradakı filmlərin əsas mövzusu əhalinin siyasi və iqtisadi təzyiqlərə qarşı apardığı mübarizəni əhatə edirdi. Belə adlanan "Sinema Novo" təkcə latın amerikasında deyil, başqa dövlətlrədə də bu mövzuda filmlərin çəkilməsinə təkan vermişdir. Məsələn bir çox şərqi Avropa dövlətlərində diktator rejimlərini tənqid edən filmlər meydana gəlir.

ABŞ filmləri sonralar yendiən öz fəaliyyətini gücləndirir. Hollivudda yeni mərhələ başlayır. Bu Artur Bonni, Klide və Nik Nikolson (1967) kimi şəxslərin filmdəki rolları ilə başlayır. Amerika filmləri getdikcə siyasi, ictimai mövzular ilə məşğul olmağa başlayır.

Böyük film istehsal edən ölkələr 1975-ci ildə

Hindistan 471, Yaponiya 333, ABŞ 258, İtaliya 230, Fransa 222, Almaniya 73, İsveçrə 15, Avstriya 6

Dünya üzrə ümumi istehsal 3.692

**1990-cı illər**

Doxsanıncı illərdə Hollivud film istehsalının maliyyə imkanları artır və çox vaxt bu başgiccələndirici bir həddə çatır. Bundan əlavə texniki imkanlar, kompyüterlə xüsusi effektlər çəkilən "Döyüş" və "Fantaziya" filmlərinin keyfiyyətlə yeni mərhələyə qalxmasına imkan vermişdir. Bu dövrdə çəkilmiş "Titanik", "Armaqeddon" və "Jurastik parkı" filmləri böyük gəlir gətirmişdir. Yeni inkişaf mərhələsində "Blokbaster" anlayışı daha populyar olmuşdur.

Digər tərəfdən Amerikada azad film studiyaları da mühün nailiyyətlər əldə edirlər. Bu film istqaməti

Hollivuddan fərqli olaraq aşağı büdcə və yüksək aktyorluq qabiliyyəti əsasında film bazarında uğur qazanmaq 80-cı illərdə çətin olsa da, sonralar rejisoor Kventin Tarantino, Terri Qilliam, Cim Carmusch və Koen-qardaşlarına böyük nailiyyətlər əldə etmək nəsib olur.

1990-cı illərin ən uğurlu filmləri sırasına Quzuların susması, Jurastik parkı, Şirlərin şahı, Şindler siyahısı, Qara eynəkli kişi, Matris, Amerika gözəli daxildirlər.

**Yeni əsrdə kino**

XXI (21-ci) əsrin başlanması ilə yüksək büdcəlı filmlərin çəkilişi davam etməkdədir. Bu arada fantastik filmlər daha geniş yer alır. Üzüklərin Hökümdarı trologiyası, Harri Potter və Ulduz Müharibəsi kimi filmlər tamaşıçılar arasında sevilən filmlərdəndir.

Kompüter texnikasının inkişafı film texnikasından da yan keçməmişdir. Müasir filmlərin çəkilməsində animasiya filmləri də özünə geniş yer almışdır. Əsasən uşaqlar üçün nəzərdə tutulan bu filmlər köhnə multiplikasiya filmlərindən öz keyfiyyətləri ilə fərqlənirlər. Bu sahədə amerika studiyaları olan "Pixar" və "Disney"in filmləri böyük uğur gətirmişdir.

"Kino öz təbiətinə görə yalnız incəsənət deyil, eyni zamanda, həyat faktlarının və hadisələrinin tamamilə sənədləşdirilmə vasitəsidir. Kinematoqrafiya öz əsərlərində həyat həqiqətlərini bütün konkretliyi ilə əks etdirir və qoruyub saxlayır.

## Sovet filmləri

Sovet filməri çox özünəməxsus idilər. Bu onunla izah olunur ki, o uzun illər dünyada bu sahədə baş verən yeniliklərdən izolyasiya olunmuş şəkildə fəaliyyət göstərmişdir. Sovet kinosu ilk uğuru səssiz filmlər dövründə qazanır. O dövrdə proletar kino sənətinində novatorluq Qərdbdə bir çoxları üçün maraqlı idi. Sergey Eyzenşteynin işləri kinonun inkikşafına öz təsirini göstərir. Çılğınlı 20-ci illərədən sonra SSRİ-də film sənəti sahəsində sakitlik hökm sürür.

İkinci dünya müharibəsindən sonra tək-tək kütləvi auditoriya üçün nəzədə tutulan Sovet filmləri xaricdə nümayiş etdirilirdi. Bu ilk öncə onunla bağlı idi ki, sovet insanının həyatının məxsusiliyi naməlum və qərb tamaşıçıları üçün maraqsız idi. Bu filmlər onlar üçün çox primitiv görünürdü. Digər tərəfdən sovet filmləri üçün xarici bazar ideoloji səbəbədən bağlı idi. Ölkə daxilində isə əksinə Sovet filmləri populyar idilər və kinoteatrlar çox vaxt ağzına qədər dolurdu. Bu ölkəyə küllü miqdarda gəlir gətirirdi. Onu da demək lazımdır ki, film sənətinin bir çox janrları senzura tərəfindən qadağan edilmişdir. Buna baxmayaraq SSRİ-də XX (20-ci) əsrin ikinci yarısında dünya filmləri sırasına daxil olan bir neçə istedadlı avanqard kino işləri görülür. "Perestroyka"dan sonra Sovet kinosunda da yeniləşmə özünü göstərir. Cəmiyyətdəki dəyişiklikləri təsvir edən yeni mövzularda filmlər çəkilməyə başlayır.

**Azərbaycan kinosu**

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında" 2000-ci il 18 dekabr tarixli Sərəncamına əsasən hər il avqustun 2-si ölkəmizdə "Azərbaycan Kinosu Günü" kimi qeyd olunur. Dünya kinosunun tarixi ilə üst-üstə düşən Azərbaycan kinosu ilk vaxtlar səssiz və ağ-qara, sonradan isə rəngli və səsli formatda olub. XIX əsrdən etibarən cərəyan edən maarifçilik hərəkatının, dünyəvi teatrın və mətbuatın inkişafı da kinonun yaranmasına təkan verib. 1898-ci ildən başlayaraq Azərbaycanda "Şəhər bağında xalq gəzintisi", "Bazar küçəsi sübh çağı", "Qatarın dəmiryol vağzalına daxil olması", "Balaxanıda neft fontanı", "Qafqaz rəqsi", "Bibiheybətdə neft fontanı yanğını" və başqa filmlər çəkilmişdir. 1945-ci ildə yaradılan və ekran sənətimizin qızıl fonduna daxil olan "Arşın mal alan" filmi kinomuzda yeni keyfiyyət dəyişikliyindən xəbər verir. Bu günə qədər Azərbaycan milli kinosunun ən uğurlu və parlaq nümunələri sırasında dayanan "Arşın mal alan" indiyədək 136 ölkədə nümayiş etdirilmiş və 86 dilə tərcümə olunaraq kinomuza şöhrət gətirmişdir. 1956-cı ildə kinomuzda daha bir keyfiyyət dəyişikliyi baş verir: bu gün də sevilə-sevilə baxılan "O olmasın, bu olsun" ilk rəngli bədii filmi ekranlaşdırılır. Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə milli kinonun inkişafı üçün mühüm tədbirlər həyata keçirilmişdir. Bu illərdə milli kino sənətimiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, kino sahəsində çalışan sənətkarlara diqqət və qayğı göstərilmişdir. 1970-1980-ci illərin birinci yarısında Azərbaycan kinosu özünün intibah dövrünü yaşamışdır. Məhz bu illərdə Azərbaycan

kinematoqrafçılarının yaratdıqları filmlər milli-mənəvi dəyərlərin təbliğində, milli özünüdərkin, milli şüurun formalaşmasında və yetişməkdə olan nəslin tərbiyəsində mühüm rol oynamışdır. Bu filmlər məzmun və janr etibarilə kino sənətimizə yeniliklər gətirmiş və bu sənəti xalqa daha da yaxınlaşdırmışdır. Azərbaycan filmləri içərisində müxtəlif peşə və sənət adamlarının həyatından bəhs edən, tarixi yaddaşı özünə qaytaran filmlərin çox olması ekran sənətimizin mövzu müxtəlifliyinin göstəricisidir. Ötən əsrin Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. Ölkə başçısı 2008-ci il 4 avqust tarixli Sərəncamla "Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Proqramda kinofilmlərin istehsalının artırılması, eləcə də müasir kino avadanlıqları və texnikası ilə təchizat, xarici ölkələrlə birgə film istehsalının genişləndirilməsi, kinoteatrların yenidən qurulması nəzərdə tutulmuşdur.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi haqqında" 2018-ci il 31 yanvar tarixli Sərəncamı ekran sənətimizə diqqət və qayğının daha bir ifadəsidir. Sərəncamda deyilir: "Neft Bakısına dair ilk xronikal süjetlərin nümayişi ilə başlayan Azərbaycan kino sənəti təşəkkül tapdığı vaxtdan etibarən böyük inkişaf yolu keçmiş və ötən müddət ərzində xalqın mədəni-mənəvi həyatında özünəməxsus mövqe qazanmışdır. Kino yaradıcılığı işinin uğurla təşkili sayəsində ölkə kinematoqrafiyası sonralar öz imkanlarını getdikcə daha da artırmış, əldə etdiyi nailiyyətlərlə Azərbaycanın zəngin mədəniyyət salnaməsinə parlaq səhifələr yazmışdır". Artıq

ölkəmizdə kinostudiyaların maddi-texniki bazaları gücləndirilmiş, yeni filmlər çəkilmiş, kino sənətimiz inkişafın müasir mərhələsinə qədəm qoymuşdur. “Azərbaycanfilm” kinostudiyasının istehsalı olan aktual mövzulu filmlər təkcə son illər 50-dən çox beynəlxalq film festivalında iştirak edərək Azərbaycan gerçəkliklərini dünyanın kino auditoriyasına çatdırmış və nüfuzlu mükafatlara layiq görülmüşdür. “Nabat”, “Çölçü”, “Buta”, “Axınla aşağı”, “Axırıncı dayanacaq”, “Qırmızı bağ”, “Dəyərli adlar”, “Yarımçıq xatirələr”, “Qala”, “40-cı qapı”, “Qisas almadan ölmə”, “Sahə”, “Aktrisa”, “Xeyirlə Şərin rəqsi” və başqa filmlərimiz müstəqillik illərində Azərbaycan kinosunun mövzu və sənət axtarışlarından xəbər verir. Mədəniyyətimizin qızıl fonduna daxil olan tarixi filmlər yaradılmış, görkəmli əsərlər ekranlaşdırılmış, müasir mövzulu və sənətkarlıq baxımından diqqətəlayiq filmlər çəkilmişdir. Həmin illərdə Azərbaycanda 110 bədii, 500 sənədli və elmi-kütləvi film, “Mozalan” satirik jurnalının 96 nömrəsi, eləcə də 44 cizgi filmi istehsal olunmuşdur. “Bir cənub şəhərində”, “Bizim Cəbiş müəllim”, “Dəli Kür”, “Şərikli çörək”, “Dərviş Parisi partladır”, “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Nəsimi”, “Dədə Qorqud”, “Babək”, “Nizami”, “Alma almaya bənzər”, “O qızı tapın”, “Babamızın babasının babası”, “Səmt küləyi”, “Tütək səsi”, “Qərib cinlər diyarında” və başqa bədii filmlərimiz bu illərdə çəkilib. Bu filmlərimizi fərqləndirən əsas cəhətlərdən biri də xalqımızın həyatına, başlıcası isə çoxəsrlik tariximizə, adət--ənənələrimizə, milli dəyərlərimizə daha dərindən nüfuz etməsində idi. Sovet imperiyası dövründə nə qədər çətin olsa

da, ulu öndərin təşəbbüsü ilə milli kinomuzun qızıl fondu sayılan bu cür sənət nümunələri yaradılmışdır.

Müstəqillik illərində milli kinomuza xüsusi diqqət yönəldilməsi də məhz ulu öndərin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində məhv olmaq təhlükəsi ilə üzləşən incəsənətin bu vacib sahəsi 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1998-ci il 19 avqust tarixdə "Kinematoqrafiya haqqında" Qanun qəbul edilmiş və bununla da, dövlət kinematoqrafiyasının hüquqi bazası yaradılmışdır. 1996-cı ildə isə Azərbaycan Dövlət Film Fondu yaradılmış, filmlərin qorunması təmin edilmişdir.

Azərbaycan kinosu zamanın böyük sınaqlarından şərəflə çıxaraq xalqa xidmət yolunu tutmuş və sevilən sənət sahəsinə çevrilmişdi. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: "Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur... Xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir".

## Hind filmləri

Hindistanda filmin tarixi 1896-cı ildə Lumyer qardaşlarının Vatson mehmanxansında öz kinematoqraflarının nümayişi ilə başlayır. Qısa müddət sonra, 1901-ci ildə ilk hind sənədli filmi çəkilir. Sənədli filmlərlə bərabər teatr filmləri də çəkilir. Bu qısa filmlər teatrlarda fasilə zamanı atraksiyon xarakterli nümayiş edilir. 1907-ci ildə Jamşedi Framji Madan Kalkuttada ilk kinostudiya olan Madan Teatre Company-ni yaradır. Səssiz

filmlər dövründə bu müəssisə əsas film istehsalçısına çevrilir. Ənənəvi hind teatrı səhnə, rəqs və mahnı qarışığından ibarət idi. Bu ənənə sonralar filmlərdə də özünə yer alır. Avropada olduğu kimi burada da film istehsalı texnikanın inkişafı ilə ayaqlaşmağa çalışır və illər keçdikcə çoxlu sayda müxtəlif mövzularda filmlər çəkilir.

Hind filmi istehsalı əsasən Mumbay (keçmiş Bombey) şəhərində cəmləşmişdir. Ona görə də, buraya çox vaxt "Hollivuda" oxşar olaraq həm də "Bollivud" deyilir. Hind filmləri yerli adət ənənələr sıx bağlı olduğundan, dünyada o qədər də şöhrət qazana bilməmişdir. Ancaq hind filmləri keçmiş SSRİ məkanında populyar idi. Bu da müəyyən qədər siyasi durumla bağlı idi. Hind filminin əsas süjetləri gündəlik problemlər, məhəbbət, suç, qisas və bu kimi mövzulara toxunur. Hər bir hind filmini praktiki olaraq musiqili film janrına aid etmək olar. Son zamanlar Hindistanda da Avropa və Amerika filmlərinə oxşar olan filmlər çəkilməyə başlamışdır. Hindistanda Bollivuddan başqa sərbəst fəaliyyət göstərən başqa studiyalar da mövcuddur. Son zamanlar Avropada ardıcıl olaraq hind filmləri kinolarda nümayiş etdirlir və hind film qəhrəmanlarının iştirakı ilə böyük konsert-şou proqramları həyata keçirilir. Hal-hazırda Hindistan ölkə kimi istehsal olunan filmlərin sayına görə dünyada birinci yerdədir.

**Film janrları**

- Bioqrafik filmlər — konkret şəxsin həyat və yaradıcılığından bəhs edən filmlərdir;

- Macəra filmləri — çətin tapşırıqları olan qəhrəmanların sərgüzəştlərindən bəhs edən filmlərdir;

- Dedektiv filmləri — törədilən cinayət və qatilin tapılma prosesi ilə bağlı olan filmlərdir;

- Həbsxana filmləri — həbsxana həyatı, həbsxanadan qaçış ilə əlaqədar olan filmlərdir:

- Komediya filmləri — bu filmlərin məqsədi izləyiciləri əyləndirmək, güldürməkdir. Əksər hallarda xoşbəxt sonluq ilə bitir;

- Qorxu filmləri — qorxu hissi üzərində qurulmuş filmlərdir. Qorxu filmlərində qatil, ruh, şeytan, cin kimi personajlara və sehr (cadu), qan, qaranlıq kimi motivlərə tez-tez yer verilir;

- Tarixi filmlər — önəmli tarixi hadisələrə (müharibələr, yeni kralın seçilməsi, islahatlar və s.) ilə bağlı filmlərdir;

- Romantik filmlər — eşq, sevgi, evlilik üzərində qurulan filmlərdir;

- Müharibə filmləri — döyüş səhnələri ilə zəngin olan, quru, su və ya hava döyüşləri ilə əlaqədar olan filmlərdir;

- Dini məzmunlu filmlər — peyğəmbərlərin, dini liderlərin, böyük din xadimlərin (imam, keşiş və s.) həyatından, hər hansı dinin yaranması və yayılması ilə əlaqədar olan filmlərdir.

- Animasiya filmləri — rəsmli, yaxud həcmli obyektləri müəyyən fazalarla hərəkət etdirib onların bu hərəkətini ardıcıl lentə almaqla yaranır.

Beynəlxalq kino günü münasibətilə kitabxanalar **oxucu konfransı** təşkil edib, bu mövzuda tələbələri, məktəbliləri maarifləndirə bilərlər. Bunun üçün konfransa kino sahəsi ilə məşğul olan mütəxəssislər, rejissorlar, İncəsənət Universitetinin tələbələri, məktəblilər dəvət olunur. Əvvəlcə metodist Beynəlxalq kino günü ilə bağlı hazırladığı slaydı konfrans iştirakçılarına təqdim edir. Sonra isə söz konfrans iştirakçılarına verilir.

I İştirakçı: 1895-ci ildə Fransada Oqüst və Lui Lümer qardaşlarının əsasını qoyduğu kino bəşər mədəniyyəti tarixində böyük səhifə açmışdır. Kino bizi əhatə edən maddi aləmin gerçək ekran obrazını böyük ustalıq və inandırıcılıqla yarada bilir.

Kinonun bir sənət əsəri kimi təşəkkülündə teatr, ədəbiyyat, rəssamlıq, qrafika və s. kimi bədii yaradıcılıq sahələri əhəmiyyətli rol oynamışdır. Ədəbiyyat kinoya əvvəlcə ssenari yazısı, daha sonra müstəqil janr olan ədəbi kinossenarini, musiqi isə ritm və tempi bəxş etmişdir. Bütün bunlar göstərir ki, kino yarandığı dövrdən etibarən sintetik,

zaman-məkan sənət növü kimi təşəkkül tapmağa başlamışdır.

*II iştirakçı kinomatoqrafiya haqqında oxucuları məlumatlandırır.*

II İştirakçı: Bu gənc sənətdir və kinonun meydana gəlməsinə təkan verən amil hərəkət edən fotoqrafiyanın ixtira olunmasıdır. Onu bəzən sadəcə olaraq hərəkət edən fotoqrafiya da adlandırırlarmış. Çünki hərəkət edən təsvir kinematoqrafiyanın əsasını təşkil edir. Kinematoqrafiya yunanca "hərəkət" və "yazıram" deməkdir.

**Kinematoqrafiyanın xüsusiyyətləri**

- Yaratma prosesi, sənədi bir faktura məhsulu edən xüsusi bir texnologiya tələb edir;

- Buna görə onun istehsalı komanda işi tələb edir;

- Fotoqraflıqla, Qərb rəssamlığının plastik dəyərlərinin (təyyarənin tərkibi, perspektivdən istifadə, işıqlandırmanın öyrənilməsi və s.) Fotoşəkilləri ilə sıx bağlıdır;

- Hərəkət qeydləri və səs inteqrasiyası, bunun son nəticələrinə ehtimal prinsipini inkişaf etdirməyə imkan verir;

- Eyni zamanda ədəbiyyat (hekayə növləri), teatr (geyimlər, dekorasiya, səhnə nümayişi), səs və musiqi kimi digər sənətlərdən elementləri birləşdirir;

- Texnikasına əsaslanaraq onu digər vizual sənətlərdən fərqləndirən öz dilini inkişaf etdirmişdir montaj.

III İştirakçı: Kinonun bədii səviyyəyə, sənət əsəri dərəcəsinə qədər yüksəlişini səbirlə izləyən tamaşaçı auditoriyası isə bu günədək ondan ayrılmayıb.

Teatr rejissoru, dekorator, aktyor, qəzet karikaturaçısı və ən nəhayət əyləncəli attraksionlarda texniki konstruktor kimi çalışan Melyes Lümyer qardaşlarından aparat əldə edərək ilk dəfə kamera ilə kinematoqrafik tryukları çəkməyi kəşf etdi. Küçədən keçən minik arabalarını çəkən Melyes birdən çəkilişi dayandırıb kameranı digər səmtə çevirir. Hansısa bir cənazə maşınını görən kimi çəkilişi təkrar davam etdirir. Sonra o, çəkdiyi kadrları izlədikdə bir-birinin ardınca yaranan montaj kinosunun maraqlı cəhətlərini kəşf edir. Melyes montaj kinosu üslubunda bir-birinin ardınca sirk səhnələrini, teatr tamaşalarını ekranlaşdırdı. Onun çəkdiyi ümumi və iri planlarda olan obrazlılıq təəssüratı tamaşaçıların kinoya olan marağını artırırdı. “Qırmızı papaq”, “Göy saqqal”, “Janna d'Ark”, “Faust” tamaşalarının ekran variantı tamaşaçıları son dərəcə heyrətə gətirir, kinoya isə bədiilik verirdi.

Beynəlxalq Kino Günü münasibəti ilə kitabxanada **kitab sərgisi**nin təşkili mütləqdir.

Sərgidə Beynəlxalq Kino Günü haqqında yazılmış kitablar, dövri mətbuatda dərc olunmuş yazı nümunələri, görkəmli şəxsiyyətlərin kino haqqında söylədikləri kəlamlar yer almaqdadır. Sərgiyə müxtəlif şəkillər, ayrı-ayrı kino səhnələrinin rəsmləri və tamaşa zamanı çəkilmiş fotolar yerləşdirilir və başlıqlarlar verilir: “Beynəlxalq Kino günü”, “İnkişafın yeni mərhələsi”, “Bu kino ki,var...”, Kino xalqın sərvətidir”, “Kino bizə nə deyir”, “Yaddaşımızın ekran

salnaməsi", "Taleləri yaşadan sənət", "Kamera dünyaya baxır","Kino aləmində satira", "Kinonun dünəni, bu günü". Sərgidə Dünya kinosuna aid müxtəlif şəkillər və görkəmli insanların kino haqqında söylədikləri fikirlər yer alır.































## Sərgi ətrafında oxucularla söhbət

*Metodist mövzu ilə bağlı söhbətə əvvəlcədən hazırlaşıb, Beynəlxalq kino günü və sərgidə nümayiş olunua kitablar haqqında ətraflı məlumat toplamalıdır.*

Dünya kino sənətinin tarixi 1895-ci ildən başlanırsa, Azərbaycanda isə bu sənətin tarixi 1898-ci ilə rəsadüf edir. İlk filmlər fotoqraf və nasir Aleksandr Mişon tərəfindən çəkilmiş xronika sujetləri və bir bədii kinosujetdən ibarət idi. Azərbaycanın ilk bədii filmi isə 1915-ci ildə çəkilişinə başlanılan "Neft və milyonlar səltənətində" adı ilə tanınıb. Kino janrları içərisində hər zaman böyük maraqla qarşılanan

kinokomediyaların çəkilişində isə Azərbaycanda 1916-cı ildən başlanılıb. İlk kinokomediya Üzeyir Hacıbəyovun "Arşın mal alan" operettası əsasında çəkilib.

İlllər keçdikcə, texnika inkişaf etdikcə kino sənətində də yüksəlişlər özünü büruzə verməyə başlayır. XX əsrin ortalarında Azərbaycan kino tarixinə öz möhürünü vurmağı bacarmış əsl sənət numunələri işlənib hazırlanır. "Bəxtiyar", "Yeddi oğul istərəm", "Dəi Kür", "Əhməd haradadır", "Ulduz", "O olmasın, bu olsun", "Bizim Cəbiş müəllim", "Bir dəfə Qafqazda", "Görüş", "Böyük dayaq", "Ögey ana", "Nəsimi", "Babək", "Dədə Qorqud","Dərviş Parisi partladır", "Bəyin oğurlanması", "Sehirli xalat", "Yol əhvalatı" və adlarını çəkmədiyim onlarla kino inciləri dəfələrlə izlənmələrinə baxmayaraq bu gün də sevilir, təkrar-təkrar izlənir. Azərbaycanda milli rejissor və aktyor kadrları hazırlamaq üçün 1925-ci ildə Şamil Mahmudbəyovun təşəbbüsü ilə AFKİ-nin nəzdində studiya təşkil edildi. Cəfər Cabbarlı, Mikayıl Mikayılov və başqaları burada oxumuşdular. Filmlərin bədii keyfiyyətini yüksəltmək, milli kadrların inkişafına kömək məqsədilə Bakıya Vsevolod Pudovkin, Nikolay Şengelaya, Mixail Çiaureli kimi məşhur kinorejissorları, eləcə də Aleksandr Qalperin, İvan Frolov, Dmitri Feldman, Leonid Kosmatov, Yevgeni Şneyder və başqa kinooperatorlar dəvət olunmuş, Cəfər Cabbarlı, Abbas Mirzə Şərifzadə və başqaları kino yaradıcılığı işinə cəlb edilmişdilər.

AFKİ sonralar "Azdövlətkino" (1926-1930), "Azərkino" (1930-1933), "Azfilm" (1933), "Azdövlətsənayesi" (1934), "Azərfilm" (1935-1940), "Bakı kinostudiyası" (1941-1959) kimi adlar daşımışdır, 1961-ci ildən C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası adlanır.

## Görkəmli şəxsiyyətlər kino haqqında

Bəşəriyyət qarşısında kinonun xidməti böyükdür. Amma bizim xalqımızın inkişafı yolunda Azərbaycan kinosunun xidməti əvəzsizdir.

**Heydər Əliyev,**
*Ulu öndər*

Foto gerçəkdir, kino isə saniyədə iyirmi dörd dəfə gerçək.

**Jan Lük Qodar,**
*rejissor*

“Yaxşı filmin qüsurları da olmalıdır. Həyat kimi, insanlar kimi.”

**Federiko Fellini,**
*rejissor*

Filmdəki mənfi qəhrəman nə qədər güclü alınıbsa film də o qədər yaxşıdır.

**Alfred Hiçkok,**
*rejissor*

Hər yeni film mənə həyatımı necə idarə edəcəyimi öyrədir.

**Nuri Bilgə Ceylan,**
*rejissor*

Barmağımı kəssəm tragediyadır. Qapağı açıq kanalizasiyaya düşüb ölməyim isə komediya.

**Mel Bruks,**
rejissor

Dram filmlərimdə bəzi qüsurlar buraxdığımı etiraf edirəm. Mən elə bilirdim aktyor ağlayanda dram olur. Sən demə tamaşaçı ağlayanda dram olurmuş.

**Frank Kapra,**
*rejissor*

“Kino hissləri, arzuları və şüuraltını izah etmək üçün ən yaxşı vasitədir.”

**Luis Bunuel**,
*rejissor*

Kino musiqidi, teatrdı, ədəbiyyatdı, bir sözlə, özgə aləmdi.

**Abbas Mirzə Şərifzadə,**
*Mədəniyyət xadimi, kino rejissor*

## Kitab müzakirəsi




Beynəlxalq Kino Günü münasibətilə kitabxanada keçirilən maraqlı tədbirlərdən biridə bu mövzuda qələmə alınan kitabların müzakirəsidir. Metodist müzakirəyə hazırlıq məqsədilə mövzudan bəhs edən kitablarla ətraflı tanış olub, məlumat toplamalıdır. Kitab müzakirəsinin vaxtı kitabxananın saytında oxuculara bildirilir. Müzakirəyə

məktəblilər, tələbələr dəvət olunur. Metodist əvvəlcə Beynəlxalq Kino Günündən bəhs edən slaydı oxuculara nümayiş etdirir. Sonra isə kitab müzakirəsinə başlayır.

**Aydın Kazımzadə. Heydər Əliyev və kinematoqraf.Bakı: Mütərcim,2007,204 səh.**




Azərbaycan Dövlət Film Fondunda milli kinomuzun tanınmış tədqiqatçısı, bu sahədə bir çox əsərlərin müəllifi, əməkdar incəsənət xadimi Aydın Kazımzadənin "Heydər Əliyev və kinematoqraf" kitabı Bakı Dövlət Universiteti televiziya və radiojurnalistika kafedrasının professoru Aydın Dadaşovun redaktəsi ilə "Mütərcim" nəşriyyatında çapdan çıxmışdır. Kitabda Ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin hətta ayrı-ayrı sahələrindən söhbət açılır. "Heydər Əliyev və kinematoqraf" monoqrafiyası, əslində, bu böyük insanın düşüncə və həyat tərzini anlamağa imkan

verən daha bir vasitədir. Axı, ulu öndərin gördüyü bütün işlər əzəmətli, əhatəli idi. O, nəinki qayğı göstərir və kömək edirdi, həm də kino sənətini mükəmməl bilir, onun cəmiyyətdəki rolunu qiymətləndirirdi. Kitabda Azərbaycan kinematoqrafının gələcəyinə inanan Heydər Əliyevin milli kino sənətimizin inkişafında misilsiz rolundan söhbət açılır. 6 fəsildən ibarət kitab son bir-neçə ildə yazılmışdır.

**Aydın Dadaşov. Dünya kinosu örnəklər kontekstində Bakı, "Şərq-Qərb" 2016, 688 səh.**




Metodist: Əməkdar incəsənət xadimi, dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Aydın Dadaşovun "Dünya kinosu örnəklər kontekstində" monoqrafiyası Azərbaycan dilində bu mövzuda yazılmış ilk kitabdır. "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə

inkişafına dair Dövlət Proqramı"nın müvafiq müddəasına uyğun olaraq, hazırlanan monoqrafiyada dünyanın 75 ən məşhur rejissorunun 120 filmi araşdırılıb. Monoqrafiya AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun elmi şurasının müvafiq qərarı ilə çap edilib. Dünya kinosunun 120 illiyinə ithaf olunan bu kitabda müəllif ekran sənətinin tərəqqisinə təkan verən ən dəyərli filmləri mövcud nəzəri əsaslarla təhlilə cəlb etməklə mövzu, struktur, üslub və janr problemləri istiqamətində araşdırıb.Qeyd edək ki, Azərbaycan dilində bu mövzuda yazılmış ilk olan bu əsərin elmi redaktoru, sənətşünaslıq üzrə fəlsəfə doktoru Vidadi Qafarov, redaktorları, filologiya üzrə fəlsəfə doktorları Gülşən Qafarova və Könül Yusifovadır. Kitaba professorlar Aqşin Babayev, Niyazi Mehdi və əməkdar incəsənət xadimi Ayaz Salayev rəy veriblər.



**Aydın Kazımzadə. Kino və zaman Bakı, "Şərq-Qərb", 2016, 784 səh.**




Kino həyatı təsbit edərək onun təzahürlərini sənədləşdirir və tarixi keçmişi öyrənmək, maariflənmək üçün qiymətli mənbəyə çevrilir». Bu fikirlər Azərbaycan kino tarixini sistemli şəkildə araşdırmaqla yanaşı, davamlı pedaqoji fəaliyyətlə də məşğul olan Əməkdar incəsənət xadimi **Aydın Kazımzadənin "Kino və zaman"** adlı kitabındandır. Yeni nəşrin "Azərbaycanfilm" kinostudiyasının keçdiyi yaradıcılıq yoluna işıq tutduğunu iddia edə bilərik. Müəllif tədqiqat obyektinə çevirdiyi kinostudiyanın, yaranma tarixindən bu gününə qədər dövrü mərhələ-mərhələ vərəqləyir. Müxtəlif janrlı filmləri beynəlxalq mükafatlara layiq görülən, neçə-neçə yaradıcı və texniki nəslin çalışdığı Cəfər Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasının yaradıcılıq yolunda kinomuzun təşəkkülü və inkişafı, sənətkarlarımızın axtarışları barədə nəşrdə müfəssəl məlumatlarla tanış olmaq mümkündür.

Müəllif kitabın girişində kinonu dünənin texniki ixtirası və zəmanəsinin sənət möcüzəsi adlandırır: «Kino sənəti əvvəlcə səssiz kinonun dar çərçivəsindən çıxmış, sonra o

səsin gəlişi ilə danışmış, daha sonra ən mürəkkəb texniki və bədii imkanlara malik ekran sənətinə çevrilmişdir».

A.Kazımzadə uzun və sanballı yaradıcılıq yolu keçən Azərbaycan kinematoqrafiyasını dünya kino sənətinin ayrılmaz bir hissəsi kimi dəyərləndirir. Belə ki, sovet dövründə, kino tariximizin yaşı 1916-cı ildən - İ.Musabəyovun povesti əsasında ekranlaşdırılan iki seriyalı «Neft və milyonlar səltənətində» bədii filminin ekranlara buraxılması günündən (mayın 14-dən) hesablanıb. Yalnız keçən əsrin 90-cı illərinin ikinci yarısından sonra Azərbaycan kinosunun əsil yaşını - 1898, ölkəmizdə xarici filmlərin ilk dəfə nümayişi (1890-cı ilin ikinci yarısı), Azərbaycan filmlərinin ilk çəkilişi (1898-ci il mayın 31-i və iyunun 6-sı) və nümayişi (1898-ci il iyunun 21-də, avqustun 2-də və 6-da) tarixlərini tutarlı faktlarla müəyyənləşdirmək və sübut etmək müəllifə müyəssər olub.

«Azərbaycanfilm» kinostudiyasının 90 illiyinə həsr olunan «Kino və zaman» kitabında Azərbaycan kino sənətinin inkişafının əsas mərhələləri nəzərdən keçirilib. Kinostudiyada istehsal olunan maraqlı və mühüm, ideya-bədii cəhətdən əhəmiyyətli kino əsərləri və onların yaradıcılarından bəhs edilib. Müəllif, 1898-ci il yanvarın 8-də «Bakinskoye Obşestvennoye Sobraniye»nin zalında «Şagirdlərə Yardım Cəmiyyətinin xeyriyyə gecəsi keçirilərkən burada «Hərəkət edən fotoşəkillər», yəni kinematoqrafın nümayiş etdirilməsindən söhbət açıb. Həmin il mayın 31-də xeyriyyəçilik məqsədilə Mixail bağında (indiki Filarmoniya bağı) keçirilən xalq gəzintisi zamanı axşam saatlarında Bakı elmi foto dərnəyi tərəfindən filmlər göstərilib. Bu nümayiş «Şəhər bağında xalq gəzintisi» adı

altında lentə alınıb. Həmin xronika və Bakının həyatından bəhs edən «Qatarın dəmiryol stansiyasına daxil olması», «Qafqaz və Merkuri cəmiyyətinə məxsus gəminin limandan yola düşməsi» və «Bazar küçəsi sübh çağı» kino süjetləri ilə birgə iyunun 21-də Bakının mərkəzində, teatr-sirkdə, sirk tamaşasının bir əyləncəli nömrəsi kimi göstərilib: "Bu kino süjetləri Bakıda 30 ildən artıq yaşayıb çalışmış A.M.Mişon çəkmişdi. 1898-ci il avqustun 2-də ikinci proqram həmin teatr-sirkdə tam müstəqil şəkildə nümayiş etdirilib. Bu proqrama Bibiheybətdə neft fontanı yanğını», «Əlahəzrət Buxara əmirinin «Velikiy knyaz Aleksey paroxodu ilə yolasalma mərasimi», «Qafqaz rəqsi» xronikal-sənədli və «İlişdin» bədii süjetləri daxil edilmişdi”- deyə A.Kazımzadə qeyd edir.

Kino tarixini araşdıran və qələmə alan müəllifin yazdığına görə, 20-ci əsrin əvvəlində Belçikalı sahibkarlar – Firone qardaşları Zaqafqaziyada, o cümlədən Bakıda özlərinin kirayə kontorunu açır və onların təşkil etdikləri «Filma» Səhimdar Cəmiyyəti 1915-ci ildə bir neçə bədii filmin istehsalına başlayır. Cəmiyyət burada «Neft və milyonlar səltənətində», «Arşın mal alan», «Ayaqyalın məhəbbət», «Knyaz Dəmir Bulat» və s. filmlər istehsal edir. «Aydın olur ki, Azərbaycanda kinonun yaranması qanunauyğun bir hal idi. Bu vəziyyəti 19-cu əsrin sonlarında Bakıdakı ictimai iqtisadi şərait özü yetişdirmişdi”. A.Kazımzadə qeyd edir ki, 1920-ci il aprelin 28-də Azərbaycan Qırmızı Ordu tərəfindən işğal olunandan sonra ölkədə kino tarixinin yeni dövrü başlanıb və kinematoqraf yeni sovet ideologiyasının güclü təbliğat vasitəsinə çevrilib:

"Azərbaycanda kino istehsalını planlı şəkildə qaydaya salmaq və həyata keçirmək məqsədilə 1923-cü ildə Bakıda Birinci Dövlət Kinofabrikinin açılışı oldu. Bundan sonra burada sovet ideologiyasının tələblərinə cavab verən, sosialist realizmi yaradıcılıq metodu üzrə filmlər istehsal olunmağa başlandı. Təbliğat və təşviqat filmlərinin istehsalı ön plana çəkildi".

A.Kazımzadə araşdırmasında 50-ci illərin ikinci yarısından sonra və xüsusilə 60-cı illərin sonunda Azərbaycan kinosundacanlanma əmələ gəldiyini qeyd edir. Belə ki, Moskvada Ali Kinematoqrafiya İnstitutunu bitirmiş bir qrup gəncin Bakı kinostudiyasında fəaliyyəti nəticəsində milli kinomuz yeni mərhələyə qədəm qoydu. Ötən 90 il ərzində C.Cabbarlı adına Azərbaycan kinostudiyası yüzlərlə bədii, televiziya bədii, xronikal sənədli və elmi-kütləvi,







animasiya filmi istehsal edib.

Müəllif 70-80-ci illəri Azərbaycan kinosunun intibah dövrü kimi xarakterizə edir: «Bu, kinomuzun həm bədii, həm də məzmun cəhətdən tədricən yeniləşməsi, milli kinonun professional səviyyəsinin yüksəlməsi, təsvir vasitələrinin genişlənməsi, ideoloji stereotiplərin müəyyən dərəcədə yumşalması, sosial və əxlaq problemlərinin daha kəskin həlli ilə bağlı idi. Gənclərin, orta və yaşlı nəsildən olan kino xadimləri ilə əməkdaşlığı milli kinomuzun peşəkar səviyyəsinin yüksəlməsinə, milli özünəməxsusluğu ideya dərinliyi ilə fərqlənən filmlərin meydana gəlməsinə səbəb oldu». 1990-cı ildən sonra Azərbaycanda istehsal olunan filmlərin sayının xeyli azaldığını qeyd edən müəllif, buna baxmayaraq, real həyatı əks etdirən, müasir estetik tələblərə cavab verən əhəmiyyətli bədii filmlər yaradıldığını da vurğulayır: «1991-i ildə Azərbaycan müstəqillik əldə edəndən sonra cəmiyyət qarşısında yeni vəzifələr qoyuldu. Ölkəmizdə yeni ideologiyanın, cəmiyyətin yeni inkişaf modellərinin qurulması və digər sosial problemlər humanitar elmlərin tədqiqat obyektinə çevrildi».

«Kino və zaman» nəşrinin birinci fəsli «Azərbaycanın səssiz kinosu» (1920-1935) adlanır. Müəllif Azərbaycan Xalq Cümhuriyyətinin birinci ildönümünün təntənə ilə bayram edilməsinin lentə alınaraq «Azərbaycan müstəqilliyinin ildönümü münasibəti ilə təntənə» qısametrajlı sənədli filminin1919-cu il iyunun 13-də Bakının «Ekspress» və «Rekord», bir qədər sonra «Forum» kinoteatrlarında proqramdan əlavə nümayiş etdirilməsindən tutmuş «Almaz» bədii filminə qədər çəkilən bütün ekran əsərləri, onların

yaradıcı heyəti haqqında ətraflı məlumat verib. Nəşrdə «Azərbaycanfilm»in kino tarixində rol oynayan kinodramaturqların, rejissorların adları, filmlərdən şəkillər, həmçinin kinematoqrafiya işçilərinin birinci qurultayından fotolar yer alıb. Bu sənədlər vasitəsilə kino tarixinə ətraflı ekskurs etmək mümkündür.

«Mərkəzin diqqətindən kənarda qalmış yerli kinostudiya» adlı ikinci fəsildə ötən əsrin 30-40-cı illərində Azərbaycan kinosunda baş verən proseslərə nəzər saldıqda, kinematoqrafiyamızın mərkəzi dairələrin diqqətindən kənarda qaldığını və bu səbəbdən yerli kinostudiyanın fəaliyyətində nəzərəçarpacaq dəyişikliklərin olmadığını görürük. Müəllif qeyd edir ki, bu səbəbdən kinonun vəziyyəti istər «Bakı kinostudiyasında, istərsə də Azərbaycan KP MK-da dəfələrlə müzakirə olunmuş, müvafiq qərarlar qəbul edilmiş, hətta kinostudiyanın rəhbərliyi bir neçə dəfə dəyişdirilib: "Bununla belə, çəkilən filmlərin keyfiyyəti dəyişməmiş və bu fakt respublika rəhbərliyini qəti addımlar atmağa məcbur etmişdir”.

Müəllif «Milli kinomuza səsin gəlməsi» (1935) adlı üçüncü fəsildə 30-cu illərdə Azərbaycan kinosu üçün 3 əlamətdar hadisəni qeyd edir. İlk səsli bədii filmin yaradılması və səsin Azərbaycan kinosuna gəlməsi; Azərbaycanda ilk animasiya filminin istehsalı və respublikamızda əcnəbi filmlərin Azərbaycan dilinə dublyaj olunması işinin təşkili. Müəllif həmin illər ərzində çəkilən filmləri qeyd edib.

A.Kazımzadə «Nəşrdə (1941-45-ci illəri əhatə edən) «Azərbaycan kinosu müharibə illərində», «Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəylinin operettalarının ekran həlli», «Azərbaycan kinosu müharibədən sonrakı illərdə (1946-65-ci illər), «Azərbaycan kinosunun yüksəliş dövrü» (1966-1989), «Müstəqillik yollarında (1990-2002), «Azərbaycan kinosu müasir mərhələdə» (2002-2016) bölümlərdə «Azərbaycanfilm» kinostudiyasında istehsal olunan filmlərin tarixi, yaradıcı




heyəti haqqında ətraflı məlumatlar verir.

Nəşrdə həmçinin milli kinomuzun inkişafında böyük xidmətləri olmuş görkəmli kino xadimlərinin bir qrupunun kinomuzun yaranması və inkişaf yolları barədə xatirələri yer alıb. Kinorejissorlardan Muxtar Dadaşov, Mikayıl Mikayılov, Ağarza Quliyev, Niyazi Bədəlov, bəstəkar Niyazi, Xalq artisti Leyla Bədəlbəyli, İsmayıl Osmanlı, Rza Təhmasib, Möhsün Sənaninin həyat və fəaliyyətindən bəhs edilib.

Həmçinin sovet kinosunun görkəmli xadimlərindən kinorejissor, SSRİ Xalq Artisti Yefim Diziqan, Lev Sverdlin,

Nikolay Klyuçkov, Tatarstan yazıçısı Əbdülrəhman Minski, Bakı kinostudiyası ilə bağlı xatirələr də qeyd edilib. Nəşrdə həmçinin kinostudiyaya rəhbərlik etmiş Hənifə (Məmmədhənifə) Həsən oğlu Terequlov, Şamil Mahmudbəyov, Şəmsəddin Abbasov, Rəsul Rza, Mehdi Hüseyn, Sabit Rəhman, Zəki Səfərov, Məhərrəm Haşımov, Adil İskəndərov, Cəmil Əlibəyov, Eyvaz Borçalı, Ramiz Fətəliyev, Ziyafət Abbasov kimi şəxsiyyətlərlə bağlı, həmçinin 2002-2011-ci illərdə kinostudiyanın direktoru olmuş Xamis Muradov və «Azərbaycanfilm»in hazırkı direktoru Müşfiq Hətəmovun həyat və fəaliyyəti haqqında oxucularaətraflı məlumat verib. Müəllif müasir kinomuzun hazırkı vəziyyətinə də ümidlə yanaşır: «Bu gün müstəqil Azərbaycanımızla birgə möhkəm milli zəmində boy atıb inkişaf edən, ictimai həyatımızda baş verən prosesləri gələcək nəsillər üçün, tarix üçün qoruyub saxlamağa qadir olan, gələcəyə nikbin baxan Azərbaycan həqiqətlərini beynəlxalq audiovizual məkana inteqrasiya edən milli kinomuz,yaratdığı sənət əsərləri ilə xalqımızın xidmətində duraraq, dövlətimizin kino salnaməsini yaradır». Müəllif qeyd edir ki, ölkə iqtisadiyyatının dinamik inkişafı kino sahəsində böyük uğurlara nail olmaq imkanı verir: «Kino sənətinə artan diqqətin nəticəsidir ki, film istehsalına dövlət büdcəsindən ayrılan vəsaitin həcmi ildən-ilə artırılır. Dövlətimizin milli kinoya göstərdiyi diqqət və qayğı bütün kino işçilərinin üzərinə böyük məsuliyyət qoymuşdur”.

Uzun illərin və gərgin zəhmətin bəhrəsi olan nəşr mütəxəssislər, incəsənət sahəsində təhsil alan tələbələr və kinosevərlər üçün "Azərbaycanfilm”in tarixi ilə bağlı ilk mükəmməl mənbədir. Vərəqlədikcə kino tariximizin bütün

mərhələləri haqqında əhatəli məlumat əldə etmək mümkündür. Nəşrin rus və ingilis dillərinə tərcümə olunması da məqsədəuyğundur. Bu, milli kinomuz haqqında digər millətləri də geniş məlumatlandırmağa kömək edər.

https://www.ebooks.az/view/btrBuTYW.pdf

**Aydın Kazımzadə. Azərbaycan kino salnaməsi. Bakı, "Şərq-Qərb", 2016, 784 səh.**



Kinoşünas Aydın Kazımzadənin qələmə aldığı kitabın I cildinə 1898-2018-ci illərdə istehsal olunan tammetrajlı və qısametrajlı bədii və televiziya filmlərinin filmoqrafiyasını əhatə edir.

Kitabda Azərbaycan kinematoqrafiyasının keçdiyi çətin və şərəfli yola nəzər salınıb və onun inkişaf mərhələləri araşdırılıb. Diqqət çəkən məqamlardan biri də odur ki, Azərbaycan qadınlarının bir neçə on il səhnəyə çıxa bilməməsi, onları səhnədə kişilər, ya da qeyri millətdən olan qadınların əvəz etməsi, ilk dəfə azərbaycanlı qadınlardan Mərziyə Davudovanın, Əzizə Məmmədovanın 1928-ci ildə çəkilmiş "Hacı Qara" filmində iştirak etməsi, bir il sonra gənc qız İzzət Orucovanın "Sevil" filmində baş rola çəkilməsi və digər qadın aktrisalarımızın çəkildikləri filmlər, oynadıqları rollar haqqında salnamədə məlumat verilib.

"Şərq-Qərb" nəşriyyatında yüksək poliqrafik keyfiyyətlə çap edilən "Azərbaycan kino salnaməsi" kitabı kino mütəxəssisləri, mədəniyyət, incəsənət, televiziya, dövri mətbuat, kino həvəskarları, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Xatırladaq ki, müəllifin 2003-cü ildə çap olunan "Azərbaycan kinosu" izahlı kataloqunun I və II cildində də 1898-2002-ci illərdə istehsal olunan xronikal-sənədli, elmi-kütləvi, sifariş və tədris filmlərinin filmoqrafiyası tam əhatə edilmişdir.

Şagirdlər arasında Beynəlxalq kino günü münasibətilə milli kinomuzun təbliğini gücləndirmək və daha yaxından tanıtmaq, kinoya getməyi ənənə halına salmaq məqsədilə **rəsm müsabiqəsi**nin keçirilməsi də səciyyəvidir. **“Kino bizə nə deyir?”** adlı rəsm müsabiqəsində uşaqlar müxtəlif adda kinoların rəsmlərini, oraya məxsus əşya və atributlar, tamaşa anını, hər hansı bir əsərin tamaşa halında rəsmi, nağıl personajlarının və kino ustadlarımızın rəsmini çəkirlər. Münsiflər tərəfindən fərqləndirilən rəsm əsərləri divardan asılır. İştirakçılar mükafatlandırılır.

Kino sənətini, tarixini gənc nəslə tanıtmaq, sevdirmək, milli dəyərlərimizi, tariximizi onlara daha səlis şəkildə çatdırmaq üçün kitabxanada bir sıra tədbirlərin təşkili məqsədəuyğundur. Bu məqsədlə kitabxanada **biblioqrafik icmal** keçirilir. Biblioqrafik icmalın əsas mövzusu *“Kinosevərlər”* adlanır. Tədbirdə alimlər, senaristlər, tarixçilər, teatrşünaslar, incəsənət xadimləri, aktyorlar, müəllimlər, ali məktəb tələbələri və s. qonaqlar iştirak edir. İlk olaraq metodist hər kəsi salamladıqdan sonra mövzuya uyğun olaraq çıxışa başlayır və kino haqqında məlumat verir: *Metodist:* 1870-1880-ci illər fotoqrafiyanın geniş yayılmağa başladığı dövr idi. Foto həvəskarları çoxalmış, foto lövhələrinə ehtiyac artmışdı. Bu dövrdə foto lövhələri Fransaya belçikalı Van Monkxoven tərəfindən ixrac olunurdu. Böyük gəlir götürəcəyini anlayan fotoqraf Antuan Lumer özü foto lövhələri hazırlamağı qərara alır. Bu məqsədlə O, 1880-ci ildə Monplezer məhəlləsində bir barak kirayə götürür, arvadı və məktəbi yenicə bitirmiş iki oğlu ilə birlikdə brom-jelatin foto lövhələrinin istehsalına başlayır. Antuanın oğlu gənc Lui orada böyük səylə işləyir. O, 18

yaşında ikən öz nüsxəsi üzrə hazırladığı foto lövhəsində may böcəyinin şəklini alır. Lumerlər ailəsinin gəliri ildən-ilə artır və 15 il ərzində onların emalaxatxanası böyük fabrikə çevrilir. Aqyust və və Lui Lumer qardaşları foto lövhələri üçün yeni-yeni nüsxələr hazırlayırlar. 1890-cı illərdə Lui Lumer foto lövhələrinin həssaslığını artıraraq ekspozisiya müddətini iyirmidə bir, otuzda bir saniyəyə çatdırmağa müvəffəq olur. Tezliklə onlar onlar yalnız foto lövhələri istehsal etməklə kifayətlənmir, fabrikdə lent şəklində foto kağızı və Edison-Kodok prinsipi üzrə sellüloidal foto lentləri hazırlamaq işini də təşkil edirlər.

Lumer qardaşları xronofotoqrafik şəkillər çəkməyə və onları proyeksiyalaşdırmağa çalışırdılar. Onların yeganə məqsədi ekranda hərəkət edən canlı xəyallar almaq idi. Qeyd etmək lazımdır ki, bu dövrdə ekranda hərəkət edən canlı xəyallar almaq idi. Qeyd etmək lazımdır ki, bu dövrdə ekranda hərəkət edən canlı xəyallar almaq üçün yalnız Fransada deyil, ABŞ-da, İngiltərədə, Rusiyada və s. ölkələrdə də axtarışlar aparılırdı. Bu sahədə Amerikada Edison, Meybric, Fransada Mere, Re6yno və başqaları xüsusilə fərqlənirdilər. Hələ 1878-ci ildə Meybric birinci olaraq hərəkət edən objektlərin şəklini çəkə bilmiş, foto 1988-ci ildə Mere lentvarı foti kağızı üzərində ən yaxşı şəkil almağa nail olmuşdu. 1889-cu ildə Edison İstmenin köməyi ilə şəffaf, mütəhərrik, sellülondal perforasiyalı uzun foto lenti hazırlamışdı. Diksonun köməyi ilə Edison satışa "Kinetoskop" adlanan cihaz buraxmışdı ki, bu da "canlı" fotoqrafiyanı nümayiş etdirir və və dünyanı həyəcana gətirdi. Edison nümayiş etdirmək üçün xronofotoqrafik filmlər hazırlamış və hətta ixtira etdiyi fonoqraf ilə onları səsləndirməyə çalışmışdı.

Xronofotoqrafiyanı yaxşı bilən Lumer qardaşları Edisonun kinnetskopu ilə maraqlanırlar; 1894-cü ilin sentyabrında Antuan Lumer Parisdən altı min franka bir kinetoskop və qniki xronofoto0qrafik film alaraq Liona gətirir.

1894-cü ilin oktyabr ayında qardaşlar həmin filmləri ekranda nümayiş etdirmək üçün yollar axtarmağa başladılar. Gərgin əmək nəticəsində Lui Lumer məqsədinə nail oldu və kinematoqrafiyanı ixtira etdi.

Ayqust Lumer bu ixtiranın tarixi haqqında belə yazır: "Bu məqsədlə gecə-gündüz durmadan fikirləşirdik. Bir gün səhər tezdən yeni fikrimi qardaşıma demək üçün onun otağına girdim. O, məni görüb dedi:

-Bütün gecəni yata bilməmişəm, fikrən məsələni həll etmişəm. Biz elə bir aparat düzəltməliyik ki, onun hərəkəti tikiş maşınındakı hərəkətə oxşasın. Başqa sözlə, onun dişləri perforasiyaya keçsin və lenti dayanıqsız vəziyyətdə saxlasın.

Bu, sözsüz ki, ixtira idi, mən bunu başa düşdüm. Mənim qardaşım kinematoqrafiyanı belə ixtira etmişdir".

Beləliklə də, Edisonkinetoskopuna ötürücü mexanizm daxil edildi və o təkmilləşdirildi. Lumer qardaşları ixtira etdikləri bu cihazı "kinematoqraf" adlandırırdılar. Bu ixtira üçün 1895-ci il fevralın 13-də ilk patent aldılar və cihazda sonrakı təkmilləşdirmələr üçün onlara daha dörd patent verildi.

Bütün patentlər hər iki qardaşın adına verilmişdir. Lakin Aqyust etiraf edir ki, kinetoskopa ötürücü mexanizm daxil etmək fikri birinci olaraq Luinin ağlına gəlmişdir. Ona görə də ilk ixtiraçı odur.

Lui Lumer ixtira etdiyi ilk "kinematoqraf" ilə film çəkdi. Bu hadisədən iyirmi il sonra, kinematoqrafiyanın xeyli inkişaf etiyi bir vaxtda Rober-Udan teatrının direktoru Jotj Mels həmin tamaşanı xatırlayaraq yazırdı:

-Biz kiçik ekranın qarşısında oturmuşduq Bu ekran bizim istifadə etdiyimiz Molten proyeksiya ekranına oxşayırdı. Bir neçə an keçəndən sonra ekranda Liondakı Belikur meydanının tərpənməz şəklini gördük. Bir qədər təəccübləndim və yoldaşıma dedim: “Bizi elə belə sadəcə proyeksiya üçünmü narahat ediblər, mən bununla on ildir məşğulam.” Mən fikrimi bitirə bilmədim. Arabaya qoşulmuş at ekranda bizim üstümüzə cumurdu, onun dalısınca da başqa ekipaj gəlirdi. Sonra yoldan keçənlər hərəkət edirdi. Bu mənzərəni görəndə bizim ağzımız açıq qalmışdı, təəccübümüzdən özümüzü itirmişdik.

Lumer panoram kino haqqında da çox fikirləşmişdi. Fotoqrafiya, kinematoqrafiya və kimya sahəsindəki işlərinə görə Lumer 1919-cu ildə Paris Elmlər Akademiyasının üzvü seçilmişdir. O, 1948-ci ildə vəfat etmişdir.

## Kino həftəsi

Beynəlxalq Kino Günü münasibətilə kitabxananın oxu zalında bir həftə ərzində uşaqlar üçün nəzərdə tutulmuş dünya kinosu nümunələri nümayiş olunur. Məktəblilər filmləri izləmək üçün kitabxananın oxu zalında öz yerlərini alırlar. Uşaqlar filmləri izlədikdən sonra metodist kinonun yaranma tarixi, inkişafı mövzusunda diskusiya təşkil edir. Diskusiyada fəal iştirak edən oxucu kitabxananın rəhbərliyi tərəfindən mükafatlandırılır. Filmlərdən bəzilərini sizə təqdim edirik:

## Dolittle (2020)




https://www.youtube.com/watch?v=g8tViuF28zQ

Özündə bədiiliyi, tarixi, mədəniyyəti, dövrün içtimai görünüşünü, milli mintaliteti, fantastik düşüncə tərzini, fəlsəfi baxışları ehtiva etdirən kinolar eyni zamanda da insanların hazırki ən gözəl istirahətlərini təşkil edirlər. Xüsusilə də son zamanlarda texnologiyanın inkişafı, yeni formatların, effektlərin gətirilməsi bu sevimli sahəni insanlar üçün daha da baxımlı edib. Kino rejissor, operator, aktyor işinin vəhdətindən əmələ gələn bir başqa ağır və məsuliyyətli işlər də var. Çəkilən əziyyətlərin müqabilində isə hər bir ölkədə bu işlər qiymətləndirilir. Keçirilən müxtəlif festivallar, verilən müxtəlif mükafatlar əməyə verilən dəyərin bir nümunəsidir. Dünyanın ən məşhur kino mükafatı kino mükafatı hazırda "Oskar mükafatı" hesab olunur. Bu mükafat kino sahəsindəki ən yaxşılara verilir. Bundan başqa "AVN Awards", "Devid di Donatello", "Qızıl şir", "Volpi kuboku", "Qızıl palma", "Qoya", "Nika", "Bafta" və s. məşhur kino mükafatları bu sahəyə aid olanları qiymətləndirmənin bir

növüdür. Ancaq onu da unutmaq olmaz ki, kinoya ən böyük qiyməti tamaşaçı ordusu verir.

Heyvanlarla danışa bilən John Dolittie adlı həkim kraliçanın xəstəliyini müalicə etmək üçün macəraya atılır. İngiltərənin ən yaxşı həkimlərindən olan Dolittie, ilk vaxtlar özünə qapanaraq ətrafdan təcrid olur. Kraliçanın xəstə olduğunu eşidəndə həyatı tamamən dəyişir.

## Hugo (2011)

Uşaq romanı əsasında çəkilən film, Paris dəmir yolu stansiyasının divarları arasında yaşayan bir uşağın saatları təmir etməsindən sonra yaşanan sirli hadisələrdən bəhs edir.




https://www.youtube.com/watch?v=QEhfGUyRxlo

## The Secret of Roan Inish (1995) (Roan Inish'in sirri)




Köhnə film olmasına baxmayaraq, hələ də məşhurluğunu qoruyur. 10 yaşlı Fiona nənəsi və babası ilə yaşamaq üçün İrlandiyada kiçik bir balıqçı qəsəbəsinə göndərilir. Bundan sonra böyük bir əfsanə ortaya çıxar.Janr; dram, ailə, fantastic.

Rejissor: John Sayles
Rollarda: Jeni Courtney, Eileen Colgan, Mick Lally

https://www.youtube.com/watch?v=pCm--cH4fQk

## Harry Potter and the Sorcerer's Stone (2011) ( Harry Potter və Fəlsəfə Daşı)




Harry Potter seriyasının ilk filmidir. Son illərin ən yaxşı filmlərindən biri hesab olunur. Harry, Ron və Harmonienin macəralarından bəhs olunur. Janr: macəra, ailə, fantastic

Rejissor: Chris Columbus
Rollarda: Daniel Radcliffe, Rupert Grint, Richard Harris, Emma Watson

https://www.youtube.com/watch?v=VyHV0BRtdxo

## First Position (2012) (Birinci Vəzifə)




Beş qitədən cəlb olunan balet iştirakçılarının hazırlanmasından, mübarizəsindən bəhs olunur. 9-19 yaşlı yarışçılar qələbə uğrunda əllərindən gələni edirlər.
Janr: sənədli, komediya, dram
Rejissor: Bess Kargman
Rollarda: Gaya Bommer Yemini, Michaela Deprince, Jules Jarvis Fogarty

## Up (2009) Yuxarı



Filmdə həyat yoldaşı öldükdən sonra planlaşdırdığı macəranı həyata keçirmək istəyən Carl və 8 yaşlı bir uşağın başına gələnlərdən bəhs edir.
Ən yaxşı uşaq filmlərindəndir.
Janr: animasiya, ailə, fantastik
Rejissor: Pete Docter, Bob Peterson; Rollarda: Edward Asner, Jordan Nagai, Bob Peterson

https://www.youtube.com/watch?v=ORFWdXl_zJ4

## The Jungle Book (2016) Cəngəllik Kitabı




Film canavar ailə tərəfindən böyüdülən Mouglinin macəralarından bəhs edir. Qaldığı yeri tərk etdikdən sonra onun başına cürbəcür hadisələr gəlir.
Janr: macəra, ailə, fantastik
Rejissor: Jon Favreau
Rollarda: Neel Sethi, Ben Kingsley, Bill Murray

https://www.youtube.com/watch?v=9PGe5vN3Q6E

# Oliver Tvist (film, 2005)



**Oliver Tvist** (Oliver Twist) — macəra filmidir. Rejisoru Roman Polanskidir. Film 2005-ci ildə işıq üzü görmüşdür. Çarlz Dikkensin "Oliver Tvistin macəraları" romanı əsasında ekranlaşdırılmışdır.

Bir yetimxanada dünyaya gələn Oliver Tvistin həyatı təsvir edilməkdədir. Oliver Tvist bir yetimxanada dünyaya gəlir. Yetimxana müdiri bəy Bumble, ona adını qoyar. Uşaqlığını qadın Mann' ın yanında keçirər. 11 yaşındaykən bəy Soverberyin yanına övladlıq verilər. Bəy Soverbery cənazə işləriylə məşğul olan biridir. Oliver burada özünü xoşbəxt hiss etməz və evdən qaçar. Yeddi günlük yorucu bir səfərdən sonra Londona gəlir. Ac və yorğun olan Oliver Londonda Jack Davkıns ilə tanış olar. Jack Olivera kömək edər, qalması üçün onu öz qaldığı yerə gətirər. Burada Fagın və yoldaşlarıyla tanış olar. Bu Oliverin həyatındakı dönüş nöqtəsidir. Fərqində olmadan oğru şəbəkəsinin içində özünü tapmışdır. Bir gün Davkıns oğurluq edərkən Oliver çaxnaşmaya qapılar, qaçmağa başlar. Dəsmalının

oğurlandığını anlayan Brownlow, Olıverdən şübhələnər və onu tutar. Oliver bütün həyatını Brovnlowa izah edər. Brovnlov ona yazığı gəlir və ailəsini tapa bilməsi üçün kömək edəcəyinə söz verər. Oliverin dürüst biri olub olmadığını anlamaq üçün Brovnlov onu bir kitabçıya yüklü bir pulla kitab almak üçün göndərərər. Yolda Fagının yoldaşı olan Villiam Sikes onu qaçırar və Fagına gətirər. Fagın, Oliveri tamamilə ələ keçirə bilmək üçün cinayət törətməsi lazım olduğunu bilməkdədir. Bunun üçün Villiamın edəcəyi bir soyğuna Oliverin də qatılmasını istər. Oğurluğun edildiyi gecə Oliver pəncərədən içəri girərkən evin xidmətçisi tərəfindən vurular. Villiam və yoldaşları qaçmağa başlar. Oliveri evin yaxınlarındakı bir xəndəyə buraxıb oradan uzaqlaşarlar. Oliver iki gün sonra özünə gəldiyində, yarı huşsuz şəkildə ən yaxındakı evə gedər. Bura iki gün əvvəl soyulan evdir. Ev xalqı dr Losbornu çağırar. Dr. Losborn Oliverin həyat hekayəsini dinlər və ona kömək etmək üçün əlindən gələni edər. Etdiyi araşdırmalar nəticəs(n)i Oliverin zadəgan birinin oğulu olduğunu və özünə böyük bir mirasın qaldığını öyrənər. Oliver üçün bütün pis günlər geridə qalmışdır. Artıq hər şey yoluna girmişdir. Xoşbəxt bir həyat onu gözləməkdədir. Həyat nə qədər çətin olursa olsun; inandıqdan və həyata dörd əllə sarıldıqdan sonra aşılmayacaq maneə yoxdur. Bu gün olmazsa da sabah hər şey yoluna girəcək.

https://www.youtube.com/watch?v=n3FIqIDOciM

Özündə bədiiliyi, tarixi, mədəniyyəti, dövrün içtimai görünüşünü, milli mintaliteti, fantastik düşüncə tərzini, fəlsəfi baxışları ehtiva etdirən kinolar eyni zamanda da insanların hazırki ən gözəl istirahətlərini təşkil edirlər. Xüsusilə də son zamanlarda texnologiyanın inkişafı, yeni formatların, effektlərin gətirilməsi bu sevimli sahəni insanlar üçün daha da baxımlı edib. Kino rejissor, operator, aktyor işinin vəhdətindən əmələ gələn bir başqa ağır və məsuliyyətli işlər də var. Çəkilən əziyyətlərin müqabilində isə hər bir ölkədə bu işlər qiymətləndirilir. Keçirilən müxtəlif festivallar, verilən müxtəlif mükafatlar əməyə verilən dəyərin bir nümunəsidir. Dünyanın ən məşhur kino mükafatı kino mükafatı hazırda “Oskar mükafatı” hesab olunur. Bu mükafat kino sahəsindəki ən yaxşılara verilir. Bundan başqa “AVN Awards”, “Devid di Donatello”, “Qızıl şir”, “Volpi kuboku”, “Qızıl palma”, “Qoya”, “Nika”, “Bafta” və s. məşhur kino mükafatları bu sahəyə aid olanları qiymətləndirmənin bir növüdür. Ancaq onu da unutmaq olmaz ki, kinoya ən böyük qiyməti tamaşaçı ordusu verir.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin Beynəlxalq kino günü ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı:**
**Kitablarda**

**Dadaşov A.** Ssenari yaradıcılığı. – Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 2001. – 214 s.

**Dadaşov A.** Kinoşünaslıq. – Bakı: Təhsil, 2009. – 540 s.

**Dadaşov A.** Dünya kinosu örnəklər kontekstində. – Bakı: Şərq-Qərb, 2016. – 688 s.

**İsrafilov İ.** Tofiq Kazımovun rejissor dərsləri. – Bakı: Aspoliqraf, 2013. – 232 s.

**İbrahimov S.** Kinossenarilər. – Bakı: Nurlan, 2004. – 412 s.

**Kazımzadə A.** Azərbaycan kinematoqrafçıları. – Bakı: Mütərcim, 2002. – 224 s.

**Kazımzadə A.** Heydər Əliyev və kinematoqraf. – Bakı: Mütərcim, 2007. – 204 s.

**Kazımzadə A.** Heydər Əliyev və kinematoqraf. – Bakı: Apostroff, 2011. – 212 s.

**Kazımzadə A.** Azərbaycan kinematoqrafçıları. – Bakı: Tərəqqi, 2013. – 281 s.

**Kazımzadə A.** Kino və zaman. – Bakı: Şərq-Qərb, 2016. – 784 s.

**Kazımzadə A.** Üzeyir Hacıbəyov və kino. – Bakı: Nağıl evi, 2005. – 128 s.

**Qaraqızı U.** Azərbaycan filmlərinin yaranma tarixindən. I kitab. – Bakı: E.L., 2006. – 688 s.

Yeniləşən mədəniyyət, yeniləşən məkanlar. Azərbaycan Dövlət Film Fondu. IV kitab. – Bakı: Təhsil, 2010. – 168 s.

**Dövrü mətbuatda**

**Azərbaycan** kinosunun 120 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (31 yanvar 2018-ci il) // Xalq qəzeti. - 2018. - 1 fevral. - № 23. - S. 1.

**Azəri L**. 122 yaşlı Azərbaycan kinosu // Mədəniyyət. - 2020. - 30 iyul. - № 56. - S. 3.

**Azəri L**. Kino tariximizdən maraqlı faktlar : Azərbaycan kinosu - 120 // Mədəniyyət. - 2018. - 11 may. - № 37. - S. 15.

**Azəri L**. Vətən müharibəsinin kino yolçuluğu : Bu yola haradan və necə başlanıldı? //
Mədəniyyət. - 2020. - 4 dekabr. - № 90. - S. 5.

**Bayramova Z**. 124 yaşlı Azərbaycan kinosu tarixi yolda // Səs. - 2022. - 2 avqust. - № 135. - S. 10.

**Bədəlov N**. Kino və ideologiya // Ədəbiyyat qəzeti. - 2019. - 17 avqust. - № 28. - S. 20-22.

**Cavattini Ç**. Həyat və kino gündəlikləri // Xəzər. - 2022. - N 1. - S. 221-242.

**Elsevər S**. Animasiya kinomuzda qadınlar // Ədəbiyyat qəzeti. - 2021. - 20 noyabr. - № 46. - S. 30-31.

**Elsevər S**. Kinomuzda qadınlar // Ədəbiyyat qəzeti. - 2021. - 14 avqust. - № 33. - S. 32 ; 28 avqust. - №34. - S. 20 ; 11 sentyabr. - № 36. - S. 23 ; 18 sentyabr. - № 37. - S. 24 ; 2 oktyabr. - № 39. - S. 13.

**Elsevər S**. Müharibə filmlərimizdə qadınlar // Ədəbiyyat qəzeti. - 2022. - 16 aprel. - № 13. - S. 26-27.

**Eminquey.**Tabulara qalib gələn İran filmi // Ədəbiyyat qəzeti. - 2019. - 17 avqust. - № 28. - S. 7.

**Ələkbərova L**. Azərbaycan kinosu yeni inkişaf məthələsində // 525-ci qəzet. - 2019. - 21 sentyabr. - № 128. - S. 18.

**Ələkbərova L**. Milli kino yeni inkişaf mərhələsində // Mədəniyyət. - 2019. - 20 sentyabr. - № 67. - S. 1, 5.

**Əliyeva A**. Milli kinomuzun Naxçıvanda çəkilmiş nümunələri // 525-ci qəzet. - 2022. - 1 iyun. - № 94. - S. 18-20.

**Əliyeva İ**. Həyatın kölgəsi : Kino haqqında // Azərbaycan : qəzet. - 2019. - 14 aprel. - № 80. - S. 5.

**Əmirli Ş**. 45 ildir "Dərviş Parisi partladır" : Yubilyar filmlər // Mədəniyyət : qəzet. - 2021. - 26 fevral. - № 15. - S. 7.

**Əmirli Ş**. 45 ilin Xoşbəxtlik qayğıları : Yubliyar filmlər // Mədəniyyət : qəzet. - 2021. - 27 yanvar. - № 6. - S. 7.

**Əmirli Ş**. Kinoda təsadüfi deyildi... // Mədəniyyət : qəzet. - 2022. - 3 avqust. - № 57. - S. 7.

**Əmirli Ş**. Sənədli kinonun əhəmiyyəti // Mədəniyyət. - 2019. - 20 fevral. - № 14. - S. 7.

**Fərəcov S**. Sonuncu səssiz filmimiz : Azərbaycan kinosu - 120 // Mədəniyyət. - 2018. - 26 yanvar. - № 7. - S. 11.

**Hollivudun** "qızıl əsrinin sonuncu aktrisası" : 103 yaşlı Oliviya de Hevillend: "Kino ilə bağlı ömrünü xoşabəxt yaşadım" // Kaspi. - 2019. - 21-23 sentyabr. - № 173. - S. 8.

**Quliyev R**. Kino Agentliyinə böyük ümidlər bağlayırıq : müsahibə / söhbətləşdi: Müşfiq Ş. // 525-ci qəzet. - 2022. - 30 aprel. - № 76. - S. 9.

**Qurbanqızı Z**. Kino sahəsində ənənəni yaşatmalıyıq : Azərbaycan tamaşaçısı bugünkü reallıqları əks etdirən filmlər gözləyir... // Respublika. - 2022. - 2 avqust. - № 161. - S. 4.

**Qurbanqızı Z**. Milli kinomuzun ənənələri yaşadılır // Respublika. - 2021. - 3 iyun. - № 113. - S. 10.

**Qurbanqızı Z**. Teatr və kino sənətimizin parlaq ulduzu // Respublika. - 2022. - 24 aprel. - № 85. - S. 9.

**Lalə.** Azərbaycan tamaşaçılarının həmişə İran kinosuna marağı olub : Bakıda İran kinosu günləri keçirildi // Mədəniyyət. - 2018. - 28 fevral. - № 16. - S. 7.

**Məhəbbətoğlu Q**. Azərbaycan kino sənəti böyük inkişaf yolu keçib // İki sahil. - 2018. - 2 avqust. - № 144. - S. 13.

**Məmmədəliyeva A**. Gözəlliklər kameranın gözüylə... : [Nəriman Şıxəliyev haqqında] // 525-ci qəzet. - 2022. - 5 fevral. - № 22. - S. 20.

**Mirməmməd G**. Musiqili filmlərimiz - səhnədən ekrana // Mədəniyyət. - 2019. - 1 fevral. - № 9. - S. 7.

**Mükərrəmoğlu M.** "Babək" filmi 40 ildir dünyanı dolaşır // Xalq qəzeti. - 2019. - 17 avqust. - № 178. - S. 7.

**Mükərrəmoğlu M**. Azərbaycan kinosunun zəngin ənənələri var // Xalq qəzeti. - 2022. - 2 avqust. - № 161. - S. 7.

**Mükərrəmoğlu M.** Dövlət milli kino sənətimizin inkişafına diqqəti artırır // Xalq qəzeti. - 2019. - 3 avqust. - № 168. - S. 6.

**Mükərrəmoğlu M.** O, həm də milli kinomuzun yaradıcılarından idi : Cəfər Cabbarlı - 120 // Xalq qəzeti. - 2019. - 21 iyul. - № 157. - S. 7.

**Mükərrəmoğlu M.** Onları siz də tanıyırsınız // Xalq qəzeti. - 2022. - 6 mart. - № 51. - S. 8.

**Musayeva Y**. Milyonlarla sovrulanlar : Müəmmalı şəkildə yoxa çıxan ilk bədii filmimiz - 106 yaşlı "Neft və milyonlar səltənətində" // Azərbaycan : qəzet. - 2022. - 14 may. - № 100. - S. 6.

**Müşfiq Ş**. Kinomuzun sözlü-musiqili naxışları // 525-ci qəzet. - 2018. - 28 aprel. - № 76. - S. 12-13.

**Mustafayev F**. Kino dilinin üslubi və semantik xüsusiyyətləri : 21 fevral Beynəlxalq Ana dili günüdür // Xalq qəzeti. - 2020. - 21 fevral. - № 39. - S. 9.

**Rəhimzadə M**. Türkiyə və Azərbaycan kinosunun inkişaf tarixi // Mədəniyyət : jurnal. - 2021. - № Iyul/Avqust (338). - S. 65-67.

**Rəis X**. Festivallarda filmlər üçün tələb olunan şərtlər : Elə film çəkilməlidir ki... // Kaspi. - 2019. - 15 avqust. - № 146. - S. 8.

**Rəis X**. Milli kinonun 2018-ci ildəki təcəssümü : Məqsəd 2019-cu ili "Kino islahatlar ili"nə çevirməkdir // Kaspi. - 2019. - 5-7 yanvar. - № 227. - S. 7.

**Uğurlu F.** Ədəbi əsərlərimizin "ekran" dərdi... // Yeni Azərbaycan. - 2022. - 22 fevral. - № 33. - S. 7.

**Zümrüd.** 121 yaşlı Azərbaycan kinosu // Səs. - 2019. - 2 avqust. - № 139. - S. 10.

# Beynəlxalq kino günü

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**